**“Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının Azərbaycan Respublikasının ərazisində tətbiqi Qaydaları”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının Azərbaycan Respublikasının ərazisində tətbiqi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 5 fevral 2026-cı il
№ 38

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2026-cı il 5 fevral tarixli 38 nömrəli
Qərarı ilə
**təsdiq edilmişdir.**

## Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının Azərbaycan Respublikasının ərazisində tətbiqi

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Standartlaşdırma haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra — Qanun) 18.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının (bundan sonra — beynəlxalq standartlar) Azərbaycan Respublikasının ərazisində birbaşa tətbiqi qaydalarını müəyyən edir.

1.2. Beynəlxalq standartların Azərbaycan Respublikasının ərazisində birbaşa tətbiqi ölkəmizin milli iqtisadiyyatının maraqları nəzərə alınmaqla onun milli standartlaşdırma qurumunun qərarı ilə dövlət standartı kimi qəbul edilməsi əsasında həyata keçirilir.

1.3. Beynəlxalq standartın dövlət standartı kimi qəbul edilməsi əsasları aşağıdakılardır:

1.3.1. standartlaşdırma obyektlərinə dair qüvvədə olan dövlət standartının olmaması və ya mövcud dövlət standartının beynəlxalq standartlarla ziddiyyət təşkil etməsi;

1.3.2. Azərbaycan Respublikasının standartlaşdırma üzrə beynəlxalq və regional təşkilatlarda üzvlüyü;

1.3.3. müvafiq beynəlxalq standartın qəbulu və ölkədə tətbiqi üzrə öhdəliklərin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunması.

1.4. Dövlət standartı kimi qəbul edilən beynəlxalq standartlar Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və qüvvədə olan texniki reqlamentlərlə müəyyən edilmiş tələblərə zidd olmamalıdır.

1.5. Beynəlxalq standart müəlliflik hüquqlarının qorunması ilə əldə olunmalı, bu Qaydaların 3.2.3-cü yarımbəndində göstərilən hal istisna olmaqla, rəsmi nəşrlər əsasında tərcümə edilməlidir. Beynəlxalq standartların tərcüməsini maraqlı tərəflər və müraciəti təqdim edən texniki komitə təmin edir və onun autentikliyi milli standartlaşdırma qurumu tərəfindən təsdiq olunur.

1.6. Təsərrüfat subyektləri tərəfindən standartların rəsmi nəşri müvafiq qaydada milli standartlaşdırma qurumuna təqdim olunmadıqda onların tətbiqinə icazə verilmir.

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydaların məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **milli standartlaşdırma qurumu** — Qanunun 1.0.18-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan “Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxs;

2.1.2. **autentik tərcümə** — beynəlxalq standartın tərcümə edilmiş mətninin orijinal nüsxənin mətninə uyğunluğunun milli standartlaşdırma qurumu tərəfindən təsdiq olunması;

2.1.3. **maraqlı tərəflər** – standartlaşdırma üzrə normativ sənədləri tətbiq edən və ya həmin sənədlərin hazırlanmasında maraqlı olan dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər.

2.2. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 3. Beynəlxalq standartların dövlət standartı kimi qəbul edilməsi qaydası

3.1. Beynəlxalq standartların dövlət standartı kimi qəbul edilməsi maraqlı tərəflərin və texniki komitələrin müraciəti və ya milli standartlaşdırma qurumunun təşəbbüsü əsasında həyata keçirilir.

3.2. Beynəlxalq standartların dövlət standartı kimi qəbul edilməsi üç üsulla həyata keçirilir:

3.2.1. müvafiq beynəlxalq standartın orijinal nüsxəsinin autentik tərcüməsi əsasında dövlət standartının qəbul edilməsi;

3.2.2. müvafiq beynəlxalq standarta texniki cəhətdən və struktur dəyişikliyi etməklə dövlət standartı kimi qəbul edilməsi;

3.2.3. müvafiq beynəlxalq standartın orijinal nüsxəsinin birbaşa dövlət standartı kimi qəbul edilməsi.

3.3. Müvafiq beynəlxalq standartların orijinal nüsxələrinin birbaşa dövlət standartı kimi qəbul edilməsi onun titul vərəqini və müqəddimə bölməsini dövlət dilinə tərcümə etməklə dövlət standartı kimi qəbul edilməsi yolu ilə həyata keçirilir. Standartın cildində və birinci səhifəsində onun işarəsinin (AZS…) altında mötərizədə beynəlxalq standartın müvafiq işarəsi göstərilir.

3.4. Birbaşa tətbiq olunacaq beynəlxalq standartda müvafiq beynəlxalq, dövlətlərarası, regional və ya milli standartlara istinad edilirsə, həmin istinad standartları Azərbaycan Respublikasının ərazisində qüvvədə olmalıdır.

3.5. Beynəlxalq standartın birbaşa dövlət standartı kimi qəbul edilməsi aşağıdakı normativ sənədlərə şamil edilir:

3.5.1. Azərbaycan Respublikasının standartlaşdırma sahəsində üzv olduğu beynəlxalq təşkilatların standartlarına;

3.5.2. standartlaşdırma sahəsində Azərbaycan Respublikası ilə ikitərəfli razılaşması olan xarici ölkələrin milli standartlarına, o cümlədən standartlaşdırma fəaliyyəti ilə məşğul olan xarici ölkələrin qurumlarının standartlarına.

3.6. Dövlət orqanları (qurumları) və texniki komitələr milli standartlaşdırma qurumuna göndərdiyi müraciətdə beynəlxalq standartın tətbiq sahəsi və ölkə üçün aktuallığı barədə məlumatları qeyd edir və beynəlxalq standartın rəsmi nəşrini və autentik tərcüməsini bu Qaydaların 3.3-cü bəndini nəzərə almaqla, bu Qaydaların 3.2.3-cü yarımbəndində nəzərdə tutulduğu hallarda beynəlxalq standartın orijinal nüsxəsini milli standartlaşdırma qurumuna təqdim edir.

3.7. Hüquqi və fiziki şəxslər isə ərizə ilə milli standartlaşdırma qurumuna müraciət edir. Ərizəçi fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı və ünvanı, hüquqi şəxsin adından verildikdə onun adı və hüquqi ünvanı, ərizənin tərtib edildiyi tarix və ərizəçinin imzası (hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin imzası və hüquqi şəxsin möhürü) göstərilməli və ərizə nümayəndə vasitəsilə təqdim edildikdə onun səlahiyyətlərini təsdiq edən sənədin surəti, beynəlxalq standartın rəsmi nəşri və autentik tərcüməsi bu Qaydaların 3.3-cü bəndini nəzərə almaqla, bu Qaydaların 3.2.3-cü yarımbəndində nəzərdə tutulduğu hallarda isə beynəlxalq standart orijinal nüsxədə əlavə edilməlidir.

3.8. Bu Qaydaların 3.6-cı və 3.7-ci bəndlərinə uyğun olaraq tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər müraciət edəndən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.

3.9. Milli standartlaşdırma qurumu maraqlı tərəflərin və texniki komitələrin təqdim etdiyi sənədlərə 15 (on beş) iş günü müddətində baxır. Təqdim edilmiş sənədlərdə uyğunsuzluq və çatışmazlıqlar aşkar edildikdə, milli standartlaşdırma qurumu 5 (beş) iş günü müddətində müraciət edənə yazılı bildiriş göndərir və tələblərə əməl olunmamasının nəticələrini hüquqi baxımdan izah edir. Müraciət edən bu çatışmazlıqların yazılı bildiriş alındığı tarixdən ən geci 10 (on) iş günü müddətində aradan qaldırılmasını və əlavə məlumatların təqdim olunmasını təmin etməlidir. Həmin müddətdə sənədlərə baxılma müddəti dayandırılır və dayandırılmış müddət sənədlərin baxılması müddətinə daxil edilmir. Çatışmazlıqların və uyğunsuzluqların aradan qaldırılması barədə müraciət edənin bildirişindən sonra müddətin axımı bərpa olunur.

3.10. Müraciət edən yazılı bildirişdə qeyd olunmuş çatışmazlıqları bu Qaydaların 3.9-cu bəndində göstərilən müddətdə aradan qaldırmadıqda, milli standartlaşdırma qurumu beynəlxalq standartın dövlət standartı kimi qəbul edilməsinə dair müraciətin baxılmamış saxlanılması haqqında qərar qəbul edir və bu barədə 2 (iki) iş günü müddətində müraciət edənə məlumat

verir.

3.11. Müraciətdə çatışmazlıqlar aşkar edilmədikdə, sənədlər milli standartlaşdırma qurumu tərəfindən 3 (üç) iş günü müddətində münasibət bildirilməsi üçün aidiyyəti üzrə texniki komitəyə (bundan sonra – aidiyyəti texniki komitə) göndərilir.

3.12. Aidiyyəti texniki komitə təqdim edilmiş beynəlxalq standarta 30 (otuz) iş gün müddətində baxır və öz rəyini milli standartlaşdırma qurumuna göndərir.

3.13. Bu Qaydaların 3.2.1-ci və 3.2.2-ci yarımbəndlərində qeyd olunan hallarda aidiyyəti texniki komitələr tərəfindən beynəlxalq standartın dövlət standartı kimi qəbul edilməsinə dair rəy verildikdən sonra milli standartlaşdırma qurumu onun tərcüməsinin autentikliyini təsdiq edir və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 may tarixli 284 nömrəli Qərarı ilə təsdiq edilmiş "Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişikliklər edilməsi və nəşri Qaydaları"na uyğun olaraq ekspertizasını keçirir, həmin qanunvericiliyin tələblərinə uyğun olduğu halda dövlət standartı kimi qəbul edilməsi barədə qərar qəbul edir və dövlət reyestrinə daxil edir. Dövlət reyestrinə daxil edilmiş dövlət standartı, eyni zamanda rəsmi nəşr olunaraq, standartlaşdırma üzrə dövlət fonduna daxil edilir.

3.14. Bu Qaydaların 3.2.3-cü yarımbəndində göstərilən halda isə aidiyyəti texniki komitələr tərəfindən beynəlxalq standartın dövlət standartı kimi qəbul edilməsinə dair rəy verildikdən sonra milli standartlaşdırma qurumu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 may tarixli 284 nömrəli Qərarı ilə təsdiq edilmiş "Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişikliklər edilməsi və nəşri Qaydaları"na uyğun olaraq ekspertizasını keçirir, həmin qanunvericiliyin tələblərinə uyğun olduğu halda dövlət standartı kimi qəbul edilməsi barədə qərar qəbul edir və dövlət reyestrinə daxil edir. Dövlət reyestrinə daxil edilmiş dövlət standartı eyni zamanda, rəsmi nəşr olunaraq, standartlaşdırma üzrə dövlət fonduna daxil edilir.

3.15. Bu Qaydaların 3.13-cü və 3.14-cü bəndləri ilə müəyyən edilmiş qaydada həyata keçirilmiş ekspertizanın nəticələrinə əsasən beynəlxalq standartın dövlət standartı kimi qəbul edilərək Azərbaycan Respublikasının ərazisində birbaşa tətbiq edilməsi mümkün olmadıqda milli standartlaşdırma qurumu bu barədə əsaslandırılmış qərar qəbul edir, bu barədə maraqlı tərəflərə və müraciəti təqdim edən texniki komitəyə 2 (iki) iş günü müddətində məlumat verir.

3.16. Milli standartlaşdırma qurumu aşağıdakı hallarda beynəlxalq standartın dövlət standartı kimi qəbul edilməsi üçün təşəbbüslə çıxış edir:

3.16.1. müvafiq normativ hüquqi aktların və dövlət proqramlarının icrası üzrə, həmçinin tabe olduğu dövlət qurumu tərəfindən müəyyən edilən vəzifələr yerinə yetirildikdə;

3.16.2. beynəlxalq standartda dəyişiklik edildikdə;

3.16.3. beynəlxalq standart yenisi ilə əvəz edildikdə;

3.16.4. standartlaşdırma sahəsində normativ sənədlərə dair aparılmış yoxlamanın nəticəsinə əsasən təkliflər verildikdə;

3.16.5. aparılmış təhlillər əsasında.

3.17. Milli standartlaşdırma qurumu beynəlxalq standartın dövlət standartı kimi qəbul edilməsi təşəbbüsü ilə çıxış etdikdə beynəlxalq standartın autentik tərcüməsi ilə birlikdə beynəlxalq standartın tətbiq sahəsi və aktuallığı barədə məlumatları özündə əks etdirən müraciəti aidiyyəti texniki komitələrə göndərir. Aidiyyəti texniki komitələr tərəfindən müraciətə 30 (otuz) iş günü müddətində baxılır və rəy verilir. Aidiyyəti texniki komitələr tərəfindən rəy verildikdən sonra milli standartlaşdırma qurumu beynəlxalq standartın dövlət standartı kimi qəbul edilərək Azərbaycan Respublikasının ərazisində birbaşa tətbiq edilməsi barədə qərar qəbul edir, standartlaşdırma üzrə dövlət fonduna daxil edilməsi və rəsmi nəşr edilməsini həyata keçirir.

3.18. Bu Qaydaların 3.12-ci və 3.17-ci bəndləri ilə müəyyən edilmiş qaydada aidiyyəti texniki komitələr tərəfindən verilmiş nəzərə alınmayan təkliflərlə bağlı həmin texniki komitələr milli standartlaşdırma qurumuna müraciət edə bilərlər. Milli standartlaşdırma qurumu həmin müraciətə əsaslandırılmış cavab verməlidir.